AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A. BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**İRADƏ HACIƏLİ QIZI ƏLİYEVA**

# ÇAR RUSİYASININ ŞİMAL-QƏRBİ AZƏRBAYCANDA DİNİ SİYASƏTİ VƏ İNGİLOYLAR (XIX ƏSR)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2014**

***Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir***

**Elmi rəhbər:**
*Əməkdar Elm Xadimi,*
*AMEA-nın müxbir üzvü,*
*Dövlət Mükafatı laureatı* **Y.M. Mahmudov**

**Elmi məsləhətçi:**
*Tarix üzrə fəlsəfə doktoru* **H.N. Həsənov**

**Rəsmi opponentlər:**
*Tarix üzrə elmlər doktoru, professor* **A.H. Paşazadə**
*Tarix üzrə fəlsəfə doktoru, dosent* **E.M. Lətifova**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi"kafedrası**

Müdafiə "26___" __11____ 2014-cü il saat "___"da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiəsini keçirən D. 01.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "___" ___________ 2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi:
Tarix üzrə fəlsəfə doktoru **C.Ə. BƏHRAMOV**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Vətən tarixinin az öyrənilmiş və hələ də qaranlıq qalan səhifələrinin tədqiqi milli tarixşünaslıq qarşısında duran mühüm vəzifələrdəndir. Bu baxımdan zəngin və çoxəsrlik tarixi olan Azərbaycanın XIX əsr tarixinin, o cümlədən də onun ərazilərinin Çar Rusiyası tərəfindən işğalı və işğaldan sonrakı dövr tarixi məsələlərinin tədqiqi xüsusi elmi və siyasi əhəmiyyət kəsb edir. Məhz buna görə də, hələ 1997-ci il yanvarın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimləri ilə görüşü zamanı Ümummilli lider Heydər Əliyev tarixçi alimlər qarşısında Azərbaycanın XIX-XX əsrlər tarixinin tədqiqi məsələsini bir vəzifə kimi qoymuşdur[1]. Ümummilli lider tarixçi alimləri Azərbaycanın keçmişi ilə bağlı həqiqətləri daha obyektiv araşdırmağa, milli dövlətçilik maraqları baxımından bu sahəyə xüsusi həssaslıqla yanaşmağa çağırdı[2]. Çünki, 1801-ci ildən işğal olunmasına başlamış Şimal – Qərbi Azərbaycanın torpaqlarında həyata keçirilən müstəmləkə siyasəti, yadelli etnosların bu ərazilərə köçürülməsi, aparılan ərazi inzibati dəyişiklikləri, yerli xalqın və etnik qrupların dini zəmində sıxışdırılması, artıq XX əsrin əvvəllərində bu ərazilərdə siyasi sabitliyin pozulması ilə nəticələnmişdi. Çarizmin bu regionda yeritdiyi milli və də dini ayrı-seçkilik siyasəti ilə müşayiət olunurdu. Bütün bunlar isə ilk növbədə Şimali Azərbaycanda yaşayan yerli əhali ilə azsaylı xalqlar arasında etimalsızlıq və qarşıdurma mühiti yaratmaq məqsədi daşıyırdı. Buna görə də müdafiyəyə təqdim olunan hazırkı dissertasiya – "Car Rusiyasının Şimal-Qərbi Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr)" mövzusunda dissertasiya işi tarixi həqiqətlərin daha geniş və ətraflı şəkildə tədqiqi üçün bu istiqamətdə atılan ilk addımlardan sayıla bilər.

Sovet hakimiyyəti illərində Azərbaycan tarixşünaslığında kifayət qədər öyrənilməyən, qaranlıq qalan sahələr – Şimal-Qərbi Azərbaycan ərazisində yaşayan xalqların tarixi, soykökü, etnik mənşəyi kimi məsələlər mövcud ideologiyaya xidmət edən sovet tarixşünaslığında bilərəkdən təhrif edilmişdir. Bu baxımdan, tarixən Azərbaycanın şimal-qərb bölgəsində – tədqiq olunan dövrdə isə Car-Balakən camaatlığı və İlisu sultanlığının ərazisində yaşamış, bölgənin avtoxton etnoslarından biri olan ingiloyların tarixi, etnik mənşəyi ciddi təhriflərə məruz qalmışdır. XIX əsr rus, gürcü tarixşünaslığından qaynaqlanan bu tarixi təhrif sovet tarixşünaslığında "inkişaf etdirilmiş", o zamankı mövcud ideologiyanın təsiri altında olan Azərbaycan sovet tarixşünaslığında da da həmin təhrif olunmuş məsələlərin üstündən sükutla keçilmişdir. Yalnız Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra aparıl-

[1] //Azərbaycan qəzeti 4 fevral 1997.
[2] www.azerbaijan-news.az "Tarixin dönüş mərhələsi". İ. Əliyeva

mış tədqiqatlar nəticəsində belə qeyri-elmi konsepsiyaların kökündən yanlış, heç bir elmi əsasa söykənməyən saxta müddəalardan ibarət, tarixi keçmişimizə qərəzli münasibətdən irəli gəldiyi sübut olunmuşdur. Son dövrlərdə aparılmış tədqiqatlara baxmayaraq bu istiqamətdə görülmüş işləri bitmiş hesab etmək olmaz, xüsusi elmi-siyasi əhəmiyyət daşıyan bu problemlə bağlı yeni tədqiqatlara ehtiyac vardır. Bu baxımdan təqdim olunan "Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr)" mövzusunda dissertasiya işi xüsusi elmi aktuallıq kəsb edir.

Sovet tarixşünaslığında ingiloyların etnik mənşəyi, soykökü məsələləri ilə yanaşı, tədqiqatlardan qəsdən kənarda qalmış məsələlərdən biri də onların zorakı xristianlaşdırılması, gürcüləşdirilməsi problemi olmuşdur. Çarizmin müstəmləkəçilik siyasətinin əsas istiqamətlərindən olan zorakı xristianlaşdırma işi ingiloylar arasında xüsusilə cidd-cəhdlə aparılmış, bu məqsədlə müxtəlif – həm dinc, həm də zorakı yollara əl atılmış, bütöv bir xalqın milli özünüdərkdən kənarlaşdırılması, dini etiqadının və etnik mənsubiyyətinin dəyişdirilməsi üçün cəhdlər edilmişdir. Buna bənzər, lakin bir qədər fərqli siyasətin bəzi xarici dairələr tərəfindən bu gün də davam etdirildiyini, özünün mənşəyinə, soykökünə, dininə bağlı olan, bu bağlılığı tarixən sübuta yetirmiş ingiloylar arasında xristianlığın – bu dəfə baptizmin yayılmasına cəhdlərin edildiyini nəzərə alsaq onların zorakı xristianlaşdırılması probleminin tədqiqinin müasir dövrdə də özünün aktuallığını saxladığını görmək olar.

XIX əsrdə olduğu kimi, ötən əsrin 90-cı illərindən başlayaraq "yeni metod və üsullarla" müsəlman ingiloyların xristianlaşdırılması siyasətinin həyata keçirilməsinə başlanmışdır. Əvvəlcə qonşu Gürcüstan Respublikasından, daha sonra Qərb ölkələrindən xristian missionerlər ingiloyların yaşadığı Azərbaycan Respublikasının şimal-qərb torpaqlarına ayaq açmağa başlamışlar. Qərbin güclü maliyyə dəstəyinə arxalanan missionerlər müxtəlif şirnikləndirici vasitələrlə həmin vaxt – keçid dövrü ilə əlaqədar yaranmış boşluqdan və şəraitdən istifadə edərək 20-30 nəfər ingiloya xristianlığı qəbul etdirməyə və kiçik də olsa babtist dini icmasını yaratmağa nail olmuşdular. Lakin ingiloylar üçün bu cür ssenarilər yeni olmadığından, onlar əvvəllər olduğu kimi öz soykökünə, dini mənsubiyyətinə və etnik mənşəyinə sadiq qalaraq yenə də elliklə missionerlərin qeyri-qanuni fəaliyyətinə və təbliğatına qarşı çıxdılar. Məhz belə bir vaxtda – bəzi bədxahların ingiloylara, əslində isə Şimal-Qərbi Azərbaycan əhalisinə münasibətdə öz mənfur məqsədlərindən əl çəkmədikləri bir zamanda "Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr)" mövzusunda tədqiqat işinin öz aktuallığını saxladığını görmək olar.

Şimal-Qərbi Azərbaycan tarixinin müasir dövr tədqiqatçılarının əsərlərində qeyd olunan problemin müəyyən məqamlarına bu və ya digər dərəcədə aydınlıq gətirilsə də, XIX əsrdə Çar Rusiyasının bölgəyə münasibətdə yürütdüyü dini

siyasəti və bu siyasətin ana xəttini müəyyən edən, mərkəzində yer alan ingiloy etnik qrupunun tarixinin müvafiq səhifələrinin hərtərəfli və dərindən araşdırılmasına, problemə kompleks halında sistemli yanaşılmasına ciddi ehtiyac duyulmaqdadır. Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, ingiloyların zorakı xristianlaşdırılması və eyni zamanda "gürcüləşdirilməsi" siyasəti ilə bağlı məsələlərin elmi-praktik, eləcə də siyasi əhəmiyyəti nəzərə alınaraq bu problem tərəfimizdən ayrıca, müstəqil tədqiqat işinin obyekti olaraq seçilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi:** Dissertasiya xronoloji baxımdan XIX əsri əhatə edir. XIX əsrin əvvəllərində çar Rusiyasının Şimal-Qərbi Azərbaycanı işğal etməsindən başlayaraq həmin əsrin sonlarınadək olan dövrü əhatə edən tədqiqat işində çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda apardığı dini siyasəti və bu siyasətdə ingiloylar məsələsi araşdırılır. Dissertasiya işinin xronoloji çərçivəsinin XIX əsr olaraq müəyyənləşdirilməsi təsadüfi olmayıb tədqiqat obyektinin xüsusiyyətindən irəli gəlir. Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda dini siyasəti bölgənin hələ işğalı ərəfəsində, XIX əsrin lap əvvəllərindən başlayır və ingiloyların güclü direnişi və müqaviməti nəticəsində əsrin sonlarında iflasa uğrayır. Bununla belə, Şimal-Qərbi Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı ərəfəsində bölgənin sosial-iqtisadi, siyasi durumunun işıqlandırılması, ingiloyların etnik mənşəyi, onlarda dini durumu və başqa məsələlərin tədqiqi ilə əlaqədar olaraq müəyyən edilmiş xronoloji çərçivədən kənara çıxmaq zərurəti yaranmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi*:*** Qeyd olunduğu kimi, çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda dini siyasəti, bu siyasətin obyekti olan ingiloylara xristianlığın qəbul etdirilməsi və gürcüləşdirilməsi, zorakı xristianlaşdırma siyasətinə qarşı ingiloyların müqaviməti və mübarizəsi məsələlərinin bu və ya digər dərəcədə bəzi tədqiqatçılar tərəfindən araşdırılmasına baxmayaraq, bu tədqiqatlarda məsələyə tam aydınlıq gətirə biləcək arxiv sənədlərindən daha çox məlumat əldə etmək üçün istifadə olunmuşdur. Mövzu müstəqil tədqiqat obyekti kimi ilk dəfə tərəfimizdən seçilmiş, kompleks şəkildə tədqiq olunur. Dissertasiya mövzusu üzərində tədqiqat apararkən bu problemlə bağlı azacıq da olsa məlumat verən qaynaq və tarixi ədəbiyyatdan yararlanmağa çalışılmış, arxiv sənədlərindən informasiya əldə etməklə yanaşı onlar ciddi araşdırılmış, təhlil edilmiş, sənədlərin obyektiv gerçəkliyi nə dərəcədə əks etdirdiyi digər mənbələrdəki məlumatlarla müqaisə edilərək müəyyən olunmuş, mövzu ilə bağlı məsələlərə aydınlıq gətirilməsinə çalışılmışdır.

Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda dini siyasəti və ingiloyların zorakı xristianlaşdırılması məsələlərinə həsr olunmuş ilk əsərlər hələ XIX əsrdə bu siyasətin aparıldığı zaman meydana gəlmişdir. Bilavasitə Zaqatala dairəsinə, bura daxil olan ərazinin tarixinə, əhalisinə, mədəniyyətinə həsr olunmuş müxtəlif səpkili əsərlərdən araşdırılan mövzuya aid məlumatlar və

materiallardan tədqiqat zamanı geniş şəkildə istifadə olunmuşdur[3]. Həmin dövr müəllifləri bölgə əhalisi, onların sosial-iqtisadi vəziyyəti, mədəniyyəti ilə yanaşı, xristian kilsələri, zorakı xristianlaşdırma siyasəti, əhalinin buna qarşı mübarizəsi, 1863-cü il Zaqatala üsyanı barədə məlumatlar verir.

Oktyabr çevrilişinə qədərki tarixşünaslıqda bu problemə xüsusi yer ayırmış müəlliflərdən S. Esadzeni xüsusi olaraq qeyd etmək vacibdir[4]. İmperiya tarixşünaslığında S. Esadze belə repressiv tədbirləri faktlarla vermiş ilk və yeganə müəllifdir Onun 1907-ci ildə nəşr olunmuş "Историческая записка об управлении Кавказом" əsərində çarizmin Qafqazda yeritdiyi müstəmləkəçilik və dini siyasəti, bölgədə imperiya ağalığının uzunömürlülüyünü təmin etmək məqsədilə özünə sosial dayaq yaratmaq, süni şəkildə xristian əhalinin sayını və çəkisini artırmaq səyləri, bütün bunlara nail olmaq üçün çirkin metodlara əl atılmasından geniş bəhs olunur. Sovet tarixşünaslığında qeyd olunan problemə həsr olunmuş ilk əsər tanınmış şərqşünas İ.P.Petruşevskiyə məxsusdur[5]. Onun 1934-cü ildə Tiflisdə nəşr etdirdiyi "Джаро-белоканские вольные общества в первой половине XIX в." əsərində (əsər 1994-cü ildə Mahaçqalada əlavə və şərhlərlə yenidən nəşr olunmuşdur) Car-Balakən camaatlığının XIX əsrin ilk otuzilliyindəki tarixi, bölgənin çar Rusiyası tərəfindən işğal edilməsi, onun daxili həyatı, eləcə də həmin əsrin 30-cu illərində işğala qarşı baş vermiş mübarizədən bəhs olunmaqla yanaşı, ingiloylara, onların sosial-iqtisadi durumuna, çarizmin bu xalqa münasibətdəki siyasətinə də kifayət qədər yer ayrılmışdır. Lakin bununla bərabər qeyd etmək lazımdır ki, bölgə tarixinin bəzi məsələlərini birtərəfli, qeyri-obyektiv işıqlandıran müəllifin bu əsərinə tədqiqatla bağlı problemlərin şərhi zamanı yeri gəldikcə tənqidi münasibət bildirilmişdir. A.A.Bakıxanov adına Tarix İnstitutunun 1947-ci ildə nəşr olunmuş "Elmi əsərlər"ində Q.Q. Pisarevskinin Zaqatala mahalında asılılıq münasibətlərinin ləğvinə həsr olunmuş məqaləsindən[6], 1958-ci ildə nəşr olunmuş

---

[3] Бакрадзе Д.З. Заметки о Закатальском округе. – Записки (КОИРГО), кн. XIV, вып.I. Тб., 1890; Березин И.Н. Путешествие по Дагестану и Закавказью. Казань, 1850; Бороздин К. Лезгинское восстание в Кахетии в 1863г. // Русский вестник, т.210, СПб, 1890, №9; Броневский С.Б. Новейшие географические и исторические известия о Кавказе. Ч. II. М., 1823; Yenə onun: Броневский С.Б. Новейшие географические и исторические известия о Кавказе. Ч. II. М., 1823; Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Т. I. кн. I. СПБ., 1871; Зубов Пл. Картина Кавказского края. Ч. III. СПБ., 1834; Константинов О.И. Джаро-белоканцы до XIX столетия. – Сборник газеты "Кавказ" на I и II полугодие, 1846 г. Тб., 1847; Yenə onun: Константинов О.И. Смерть генерал-майора Гулякова. Сборник газеты "Кавказ" на I и II полугодие, 1846 г. Тб., 1847

[4] Эсадзе С. Историческая записка об управлении Кавказом. Ч.1. Тб., 1907

[5] Петрушевский И.П. Джаро-белоканские вольные общества в первой половине XIX в. М.(ДНЦ РАН), 1993

[6] Писаревский Г.Г. Уничтожение в Закатальском округе зависимых отношений к бекам и к кешкело владельцам. Труды Института Истории им. А.А. Бакиханова АН Аз. ССР. Т.1. Б., 1947, с.94-106

“История, география и этнография Дагестана XVIII-XIX вв.” kitabına daxil edilmiş M.A. Kotsebunun XIX əsrin əvvəllərində bölgəyə kəşfiyat xarakterli səfərindən hazırladığı “Сведения о Джарских владениях 1826 г.”[7] Materiallarından da tədqiqat zamanı istifadə olunmuşdur.

Sovet dövründə Azərbaycan sovet tarixşünaslığında zorakı xristianlaşdırma siyasətinə ötəri də olsa toxunmuş müəlliflərdən Y.Y. Ələsgərovu göstərmək olar[8] Onun “К истории Закатальского округа в первой половине XIX века и восстание 1863 г.” mövzusunda dissertasiya işi Azərbaycan sovet tarixşünaslığında bilavasitə bu bölgənin XIX əsr tarixinə həsr olunmuş ilk əsər kimi dəyərlidir. Bu əsərdə Car-Balakən camaatlığının Rusiya tərəfindən işğalı, işğaldan sonra burada həyata keçirilən tədbirlərin bölgənin sosial-iqtisadi, siyasi durumuna təsiri, eləcə də bu ərazinin təbii-coğrafi vəziyyəti, iqtisadi həyatı ətraflı təsvir edilmişdir. Müəllif 1863-cü il Zaqatala üsyanının səbəblərindən bəhs edərkən onlardan biri kimi çox düzgün olaraq həm də çarizmin zorakı xristianlaşdırma siyasətinin olduğunu göstərir. Lakin qeyd etmək lazımdır ki, müəllif ingiloylarla bağlı mövcud qeyri-elmi konsepsiyanın təsirindən qurtula bilməmiş, onlarla bağlı müəyyən məsələlərin şərhində sələflərinin yanlışlıqlarını təkrar etmişdir.

Bütövlükdə, Şimal-Qərbi Azərbaycanın, o cümlədən tədqiq olunan problemin obyektiv araşdırılmasına XX əsrin 90-cı illərindən etibarən başlanılmışdır. Məhz həmin vaxt Azərbaycanda və keçmiş SSRİ məkanında yazılan əsərlərdə problemə obyektiv yanaşma müşahidə olunmağa başlanılır. 2006-cı ildə R.Y. Niftəliyevin nəşr olunmuş “XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı” monoqrafiyası müstəqillik dövrü Azərbaycan tarixşünaslığında zorakı xristianlaşdırma məsələsinə dair yeni yanaşmanın müşahidə olunduğu ilk əsərlərdəndir. Müəllif tədqiqat işində çarizmin bu məkrli siyasətinin müstəmləkəçi mahiyyətini göstərməklə bərabər, bununla ermənilərin əzəli Azərbaycan torpaqlarına köçürülməsi üçün münbit şəraitin yaradılması məqsədinin güdüldüyünü qeyd edir[9].

Azərbaycanın müstəqillik qazanmasından sonra Şimal-Qərbi Azərbaycanın tarixinin tədqiqində yeni mərhələnin başlandığını qeyd etmək olar. Son dövrlərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun təşəbbüsü və rəhbərliyi altında Azərbaycanın unudulmuş, diqqətdən kənarda qalmış, az öyrənilmiş bölgələrinin, eləcə də Şimal-Qərbi Azərbaycanın tarixinin tədqiqi istiqamətində xeyli işlər görülmüşdür.

---

[7] Коцебу М.А. Сведения о Джарских владениях 1826 г. ИГЭД. М., 1958

[8] Алескеров Ю.Ю. К истории Закатальского округа в первой половине XIX века и восстание 1863 г. Диссерт. на соиск. канд. ист. наук, ИИАН Азерб. ССР, Б., 1950

[9] Niftəliyev R.Y. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı. B., 2006

Onun rəhbərliyi ilə Azərbaycanın şimal-qərb bölgəsini araşdıran ayrıca məktəb formalaşmışdır.

AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun rəhbərliyi altında Tarix İnstitutunun əsərlərinin bir sayı bütövlüklə Şimal-Qərbi Azərbaycanın tarixinə həsr olunmuş[10], institutda hazırlanmış "Şimal-Qərbi Azərbaycan tarixi"[11] kollektiv monoqrafiyası isə bu istiqamətdə görülmüş çoxillik gərgin əməyin bəhrəsi kimi qiymətləndirmək olar. Şimal-Qərbi Azərbaycan tarixi üzrə ixtisaslaşmış tarixçi alimlərin iştirakı ilə hazırlanmış əsərdə bu bölgənin ən qədim dövrlərdən başlayaraq tarixi məsələləri ətraflı araşdırılmaqla, ingiloyların zorakı xristianlaşdırılması probleminə də toxunulur.

AMEA-nın müxbir üzvü Y.M. Mahmudovun təşəbbüsü və rəhbərliyi ilə hələ ötən əsrin 90-cı illərində məqsədyönlü ciddi elmi tədqiqatlara başlanmış və qısa müddətdə bu bölgənin tarixinə dair bir sıra samballı əsərlər işıq üzü görmüşdür. Həmin vaxt meydana gəlmiş əsərlərdən Ş.H. Əliyevin "Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasətində ingiloyları xristianlaşdırmaq cəhdləri (XIX əsr)" adlı irihəcmli məqaləsini xüsusi qeyd etmək olar[12]. XIX əsrdə ingiloyların zorakı xristianlaşdırılması probleminə həsr olunmuş məqalə bu istiqamətdə atılmış ilk addım olmaqla özündə problemə yeni yanaşmanı əks etdirir. Müəllif burada çarizmin ingiloylara münasibətdə yeritdiyi zorakı xristianlaşdırma siyasətini üç mərhələyə bölməklə, onu XIX əsrin əvvəllərindən başlayaraq həmin əsrin sonuna kimi xronoloji ardıcıllıqla izləmiş, çarizmin bu siyasətinin müstəmləkəçi mahiyyətini arxiv sənədlərinin məlumatları əsasında vermişdi.

Problemlə bağlı ölkəmizdə olan qaynaqların böyük əksəriyyətini tədqiqata cəlb edən müəllif zorakı xristianlaşdırma siyasətinə münasibətdə ingiloyların nümayiş etdirdiyi mövqeyi təhlil etmişdir. Müəllifə görə, ingiloyların bir hissəsi çarizmin bu məkrli siyasətini tam anlamadığından ona loyal münasibət bəsləyir, az bir qismi çar məmurlarının şirnikləndirici vədlərinə aldanaraq yeni dini qəbul edir, əhalinin əksəriyyəti isə pravoslavlığın zorakı yollarla qəbul etdirilməsinə qarşı çıxır və müqavimət göstərirdi.

AMEA-nın müxbir üzvü Y.M.Mahmudov, t.ü.f.d. E.M.Lətifova, t.ü.f.d. A.Ə. Məmmədovanın birgə yazdıqları "XIX əsrdə çarizmin Şimal-Qərbi Azərbaycanda pravoslavlaşdırma siyasəti və pravoslav kilsələrinin tikilməsi tarixindən" adlı məqalədə arxiv sənədləri əsasında faktlar gətirilərək Şimal – qərbi Azərbaycanda yaşayan ingiloyların zorla pravoslavlaşdırılması, gürcü-

---

[10] AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 20 cild, B., 2007

[11] Şimal-Qərbi Azərbaycan tarixi. B., 2011

[12] Əliyev Ş.H. Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasətində ingiloyları xristianlaşdırmaq cəhdləri (XIX əsr), BDU-nin Xəbərləri. Humanitar elmlər seriyası, 2000, №2

ləşdirilməsi siyasəti açıq şəkildə göstərilir. Məqalədə eyni zamanda indiki Qax rayonu ərazisində XIX əsrdə tikilən kilsələr barəsində geniş məlumat verilir. Müəlliflər əzəli Azərbaycan torpaqları olan bu ərazilərin və qədim Alban abidələrinin guya tarixən gürcülərə məxsus olduğunu sübut etməyə çalışan millətçi – şovinist dairələrin məkirli fikirlərini üzə çıxarmış və real tarixi saxtalaşdırmaq cəhdini mənbə və arxiv sənədləri ilə təkzib etmişdilər[13].

Bu dördə işıq üzü görmüş Şimal-Qərbi Azərbaycan tarixinə həsr olunmuş əsərlər sırasında E.M.Lətifovanın monografiyası xüsusi qeyd olunmalıdır[14]. İlisu sultanlığının ərazisində yaşamış ingiloylar barədə müəllifin verdiyi dəyərli məlumatlardan tədqiqat zamanı istifadə etmişik. Onun əsərindəki sultanlığın ərazisində mövcud olmuş ingiloy kəndləri, onların əhalisi barədəki məlumatları xüsusilə dəyərlidir.

İngiloyların zorakı xristianlaşdırılması probleminə Ə.F.Məmmədovun "Şimal-Qərbi Azərbaycan: Zaqatala dairəsi" əsərində[15] də kifayət qədər yer ayrılmışdır. XIX-XX əsrin əvvəllərində mövcud olmuş Zaqatala dairəsinin tarixinə həsr olunan əsərində müəllif bölgənin sosial-iqtisadi, siyasi durumuna toxunaraq çarizmin burada yeritdiyi müstəmləkəçilik siyasətini araşdırır. Çarizmin istismarçı köçürmə, zorakı xristianlaşdırma və digər tədbirlərin həyata keçirilməsi, bu zaman vasitə kimi ermənilərdən də istifadə olunmasından bəhs edən müəllif bu barədə arxiv sənədlərindən maraqlı faktlar gətirir. Şimal-Qərbi Azərbaycan tarixinin tədqiqinə həsr olunmuş digər əsələrdən fərqli olaraq, burada bölgədə aparılamış zorakı xristianlaşdırma işinin ermənilərin bu əraziyə kütləvi axını, köçü üçün əlverişli şərait yaratdığı, məhz bundan sonra onun daha da geniş vüsət aldığı göstərilərək bu fikir qaynaqların verdiyi məlumatlarla əsaslandırılır. Z.Ə.Cavadovanın Azərbaycanın şimal-qərb bölgəsinin əhalisi probleminə həsr olunmuş monoqrafiyası da ingiloyların XIX əsrdəki vəziyyətini tədqiq etmək baxımından xüsusi əhəmiyyət kəsb edir[16]. 2009-cu ildə Arzu Əşrəf qızının işıq üzü görmüş monoqrafiyası[17] Car-Balakən camaatlığının yaranmasından onun ərazisinin çar Rusiyası tərəfindən işğalına qədərki dövrü əhatə etməklə bütövlükdə camaatlığın siyasi tarixinə həsr olunmuşdur. Müəllif paraqraflardan birini çarizmin zorakı xristianlaşdırma siyasətinə həsr etmişdir. Problemlə bağlı Azərbaycan, qonşu Gürcüstan

---

[13] Mahmudov Y.M., Lətifova E.M., Məmmədova A.Ə. XIX əsrdə çarizmin Şimal-qərbi Azərbaycanda provaslavlaşdırma siyasəti və provaslav kilsələrinin tikilməsi tarixindən. AMEA A.A.bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 20 cild, B., 2007

[14] Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство. Б., 1999

[15] Məmmədov Ə.F. Şimal-Qərbi Azərbaycan:Zaqatala dairəsi. B., 2001

[16] Cavadova Z.Ə. Şimal-qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma). B., 1999; Yenə onun: Cavadova Z.Ə. Şimal-qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası (XIX əsrin əvvəlləri-70-ci illəri). B., 2002

[17] Əşrəf qızı A. Car-Balakən camaatlığı (XVII əsrin sonu-XIX əsrin 30-cu illəri). B., 2009

və Dağıstan respublikarının arxivlərində saxlanılan sənədləri tədqiqata cəlb etməklə yazılmış bu əsərdən də dissertasiya işində istifadə olunmuşdur.

Ş. Hacıəlinin ingloyların mənşəyi, soykökü, etnik özünüdərki, məişəti, maddi və mənəvi mədəniyyəti məsələlərinə həsr olunmuş monoqrafiyası[18], son dövrlərə qədər tarixşünaslıqda kök salmış yanlış konsepsiyaya tutarlı, əsaslandırılmış elmi cavab verən əsər kimi tərəfimizdən tədqiqat zamanı istifadə olunmuşdur. Müəllif çeşidli mənbə materiallarının məlumatları əsasında ingiloyların Azərbaycanın ən qədim avtoxton etnosu, Azərbaycan Albaniyasının qədim sakinlərindən olduğunu geniş və dərin araşdırmalar nəticəsində sübut edir.

Bütün yuxarıda göstərilənlərlə yanaşı, dissertasiyanın xronoloji çərçivəsinə daxil olan, Azərbaycanın şimal – qərb bölgəsinin tarixinə həsr olunmuş digər əsərlərə də tədqiqat zamanı müraciət olunmuşdur[19].

Qeyd etmək lazımdır ki, Şimal-Qərbi Azərbaycanın tarixinin hərtərəfli və dərindən tədqiq olunması istiqamətində hələ görüləcək işlər çoxdur. Dissertasiya işi mövcud boşluğu qismən doldurmaq üçün edilən cəhdlərdən biridir.

**Tədqiqatın mənbə bazası:** Dissertasiyanın tədqiqi zamanı mövzunun öyrənilmə dərəcəsində sadaladığımız çoxsaylı tarixi ədəbiyyatla yanaşı zəngin mənbə materiallarından da istifadə olunmuşdur. Məhz istifadə olunmuş çeşidli mənbə materiallarından əldə etdiyimiz məlumatların təhlili bizə ingiloyların zorakı xristianlaşdırılması problemi ilə bağlı bəzi mübahisəli məsələlərə aydınlıq gətirmək və problemi daha dolğun şəkildə tədqiq etmək imkanı vermişdir.

Tədqiq etdiyimiz problemlə bağlı mühüm mənbə kimi Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarını (bundan sonra AKAK) göstərmək olar. Bu aktlardan Qafqazdakı rus orduları baş komandanlarının müxtəlif illərə dair hesabatları, xristian missionerlərin hesabat məruzələri, hərbi hissə komandirlərinin müxtəlif xarakterli raportlarından ingiloyların xristianlaşdırılması ilə bağlı zəngin faktiki material əldə edilərək tədqiqata cəlb olunmuşdur[20] Aktlardakı müxtəlif hərbi hissə komandirlərinin raportlarından ermənilərin çar

---

18 Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. B., 2007

19 Həsənov H.N. Zaqatala bölgəsində kənd icmalarının idarə olunması tarixindən (XIX-XX əsrin əvvəlləri). AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 20-ci cild, B., 2007, Rəhmanzadə Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında. 1917-1930-cu illərin əvvəlləri). B., 2008; Süleymanova S.Ə. Zaqatala tarix-diyarşünaslıq muzeyinin XVIII-XIX əsrlərə dair arxeoqrafik sənədləri. Azərb. EA-nın "Xəbərlər"i. B., 1990, №4; Şükürov K.K. Azərbaycanın bölüşdürülməsi. "Kitablar aləmində" jurnalı, B., 1990, №3, Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). B., 2004; Гаджиев В.Г. Новый источник по истории Дагестана. Из истории дореволюционного Дагестана (сб. научных трудов), М., 1976; Yenə onun: Сочинение И.Гербера "Описание стран и народов между Астраханью и рекою Курой находящихся" как исторический источник по истории народов Кавказа. М., 1979

20 Акты собранные Кавказской Археографической Комиссией (АКАК). Т.I-12. Тб., 1866 - 1909

müstəmləkəçilərinin xeyrinə casusluq fəaliyyəti ilə bağlı faktlar da tədqiqata cəlb olunmuşdur.

Bu sənədlərdən Qafqaz canisinləri M.S.Voronsovun 1849-1851, A.İ. Baryatinskinin 1857-1859-cu illərə dair hesabatlarında Car-Balakəndə ingiloylar arasında xristianlığın yayılması, bu işin gedişi və nəticələri barədə məlumat verilir[21]. Aktlardan əldə edilmiş materiallar içərisində arxiyepiskop Yevgeninin zorakı xristianlaşdırma istiqamətində görülmüş işlər, əldə olunan nəticələr, bu zaman yol verilən xətalar və görülməsi nəzərdə tutulan işlər barədə hesabat xarakterli qeydlərini xüsusi qeyd etmək lazımdır[22]. O, Qafqazın müsəlman əhalisi arasında xristianlığın yayılması məqsədilə təşkil olunmuş Mozdok Osetin Komissiyası və Osetin Ruhani Komissiyasının bu istiqamətdəki fəaliyyətini (1834-cü ilə qədərki) tənqid edərək onları bu iş üçün ayrılmış külli miqdarda vəsaitə baxmayaraq yaranmış əlverişli şəraitdən istifadə edə bilməməkdə, səriştəsizlikdə, gözlənilən nəticələrin əldə edilməməsini əsas gətirərək ayrılan maddi vəsaiti mənimsəməkdə ittiham edir. Tədqiqatın mənbəşünaslıq bazasından bəhs edərkən "Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyəti"nin müxtəlif illərə dair hesabatlarını xüsusilə qeyd etmək lazımdır. Bu hesabat buraxılışlardan tərəfimizdən tədqiqata cəlb olunmuş 1862-1863, 1880, 1898-1901-ci illərə dair buraxılışlardakı Azərbaycanın şimal-qərb bölgəsinə dair zəngin statistik materiallar dissertasiyaya daxil edilmişdir[23]. Bu məcmuələrdə verilmiş çarizmin apardığı zorakı xristianlaşdırma siysətinin xüsusilə tüğyan etdiyi dövrlərə -XIX əsrin 60-cı (1859-cu il fərmanından sonra daha da gücləndirilən bu siyasət yalnız 1863-cü il üsyanından sonra müvəqqəti dayandırılır – İ.Ə.), 80-cı (1877-1878-ci üsyanından sonra yenidən fəallaşma başlayır – İ.Ə.) və həmin əsrin sonlarına dair faktiki materialın təhlili bizə bu siyasətin müstəmləkəçi mahiyyətini göstərməyə imkan vermişdir.

XX əsrin əvvəllərindən etibarən Qafqazın Rusiya tərəfindən işğalına dair müxtəlif səpkili yubiley topluları nəşr olunmağa başlanır. Belə toplu məcmuələrdən Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin müxtəlif illərə dair hesabatları ilə yanaşı, bu cəmiyyətin yaranmasının 50 illiyinə həsr olunmuş 1910-cu il nəşri olan yubiley buraxılışından da istifadə

---

[21] Отчет генерал-фельдмаршала А.И.Барятинского за 1857-1859 гг. АКАК, Т. XII, Тб., 1904; Отчет князя М. С. Воронцова за 1849-1851 гг. АКАК. Т. X, Тб., 1885

[22] Замечания архиепископа Евгения на начертание правил об устройстве Миссионерского общества для распространения Греко-Российской веры на Кавказе, составленные архиепископом Мовсеем. АКАК. Т.VIII, Тб., 1881

[23] Отчет Отчет Общества Восстановления Православного Христианства на Кавказе за 1862 – 1863 – 1880 – 1898 – 1901 годы, Тб., 1865-1903

olunmuşdur[24]. Topluda cəmiyyətin 50 illik fəaliyyəti (1859-1909-cu illər) zamanı Qafqazın müsəlman əhalisi arasında xristianlığın yayılması sahəsində gördüyü işlərdən bəhs olunur. Burada cəmiyyətin Zaqatala dairəsindəki fəaliyyətindən, onun yerli əhali, xüsusilə ingiloylar arasında xristianlığın yayılması üçün gördüyü tədbirlərdən, kilsə kitabxanalarının açılması, kilsələrin, ibadət evlərinin tikilməsi üçün vəsaitin ayrılması, dini-ideoloji təbliğat sahəsindəki fəaliyyəti barədə məlumat verilir. Bu məcmuədən əldə edilmiş zəngin faktik materiallardan tədqiqat zamanı geniş istifadə olunmuşdur.

Araşdırdığımız mövzu ilə bağlı bəhs olunan dövrdə nəşr olunmuş müxtəlif məcmuələr və buraxılışlardan əldə etdiyimiz məlumatlar ilkin mənbə materialı kimi tədqiqata daxil edilmişdir[25]. Bu mənbə materiallarının Car-Balakən camaatlıqlarının işğalı, onların daxili quruluşu, bölgənin sosial-iqtisadi durumu ilə bağlı verdiyi bilgilər dəyərlidir.

Tədqiq olunan mövzunun araşdırılması zamanı istifadə etdiyimiz ən mühüm mənbələrdən arxiv materiallarını qeyd etmək olar. Tədqiqat zamanı Azərbaycan Respublikası Dövlət Tarix Arxivindən 15 (Комиссия по окончанию сословно-поземельных дел в части Кавказского края военно-народного управления), 125 (Канцелярия наместника на Кавказе по военно-народному управлению), 579 (Благочинный ингилойских церквей), 841 (Закатальский окружной словесной суд), 866 (Закатальское окружное управление), 892 (Закатальская временная сословно-поземельная комиссия) saylı fondlar, eləcə də Rusiya Elmlər Akademiyası Dağıstan Elmi Mərkəzinin Həmzət Sadasa adına Tarix, Dil və Ədəbiyyat İnstitutunun Əlyazmalar fondunda saxlanılan problemlə bağlı sənədlər tədqiqata cəlb olunmuşdur. Bu fondlarda saxlanılan ingiloyların zorakı xristianlaşdırılması ilə bağlı bəzi sənədlər elmi dövriyyəyə ilk dəfə daxil edilmişdir (məsələn, 125-ci fondun 142 saylı işində saxlanılan məlumatlar – Tasmalı kəndində xristianlığın yayılması, kənd əhalisi arasında xristianlığı qəbul edənlər, onların sayı barədəki məlumatlar – İ.Ə.). Bu arxiv materiallarının təhlili göstərir ki, ingiloyların zorakı xristianlaşdırılması XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə kimi davamlı olaraq sistemli şəkildə həyata keçirilmişdir.

Gürcüstan Mərkəzi Mərkəzi Dövlət Tarix Arxivinin 2 (Канцелярия главноуправляющего Закавказким краем), 416 (Кавказская Археогра-

[24] Обзор деятельности общества возстановления православного христианства на Кавказе за 1860-1910 гг. Тб., 1910

[25] Кавказский календарь на 1880 г. Т., 1879, Первая всеобщая перепись населения Российской Империи 1897 г. М.; Сведения о количестве народонаселения в г. Закаталах и Закатальском округе. ССКГ, вып. IX, Тб., 1876; Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., отд. VIII. Тб., 1893

фическая Комиссия), 488 (Канцелярия Экзарха), 493 (Общество восстановления православного христианства на Кавказе), eləcə də problemlə bağlı 4, 5, 16, 240 və 489 saylı fondlardakı sənədlərin bəziləri ilk dəfə tərəfimizdən elmi dövriyyəyə cəlb olunur. Bu fondlardan əldə olunmuş materiallarda çarizmin Car-Balakən camaatlığına münasibətdə həyata keçirdiyi zorakı köçürmə – 1830-cu il üsyanının yatırılmasından sonra Köhnə Zaqatala kəndinin tamamilə yerlə-yeksan edilərək əhalisinin Alazanətrafı və Sığnaq qəzasına köçürülməsi, bu bölgədə hərbi məskənlərin salınması, Sığnaq qəzasından gürcülərin buraya köçürülməsi barədə plan-layihələr (sonuncu tədbir yalnız gürcülərin carlılardan qorxaraq bura köçməkdən imtina etmələri səbəbindən baş tutmamışdı – Ə.İ.), eləcə də zorakı pravoslavlaşdırma siyasətinin həyata keçirilməsi zamanı əhalinin xristianlığı qəbul etməyə məcbur olmaları, bu zaman qadınların belə həbs olunaraq onlara cismani cəza verilməsi (bu barədə yoxlama aparmış çar məmurları da öz hesabatlarında qadınların həbs olunaraq nəzarətdə saxlanması faktını etiraf edirdilər – İ.Ə.), kilsələrin tikilməsi məqsədilə ayrı-ayrı icmalarda əhalini bu iş üçün “könüllü” şəkildə torpaq sahələrinin ayımalarına dair qərarın verilməsinə vadar etmək kimi bir sıra zorakı tədbirlərə dair məlumatlar əldə edilmişdir.

Tədqiqat zamanı istinad etdiyimiz mənbələrdən biri də Rusiya imperiyası qanunlarının tam külliyyatıdır. Bu külliyyatın 34 və 35-ci cildlərindən ingiloylar arasında aparılmış zorakı xristianlaşdırma işini sürətləndirmək məqsədilə çarizmin gördüyü tədbirlər, bu məqsədlə verilmiş 1859-cu il 6 dekabr fərmanı və Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin təşkil olunması ilə bağlı verilmiş fərmanlar barədə məlumatlar götürülərək tədqiqata daxil edilmişdir[26]. Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin təşkili, tərkibi, məqsəd və vəzifələri, fəaliyyət istiqamətləri barədə bu külliyyatdan əldə edilən məlumatlar tədqiqatımızı daha da zənginləşdirmişdir. Burada verilən məlumatlar bizə zorakı xristianlaşdırma işinin həyata keçirilməsi sahəsindəki rəsmi dövlət siyasətini və “normativ-hüquqi əsaslarını” müəyyən edərək onu ardıcıllıqla izləmək imkanı vermişdir.

Nəşr olunmuş arxiv sənədləri də ilk mənbə kimi tərəfimizdən tədqiqata cəlb olunmuşdur[27]. Bu sənədlərdə Car-Balakən camaatlığı və İlisu sultanlığının çar Rusiyası tərəfindən işğalı ərəfəsindəki durumu, əhalisi, məşğuliyyəti barədə dəyərli faktlar əks olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi arxiv sənədləri və digər mənbələr, habelə tarixi ədəbiyyatın məlumatları əsasında çar

---

[26] Полное Собрание Законоа Российской империи. Т. 34, Т. 35. СПБ., 1859-1560

[27] Колониальная политика российского царизма в Азербайджане в 20-60 гг XIX в. АН СССР – 1936; Косвен М.О. Этнография и история Кавказа. М.,1961; Материалы по истории Грузии и Кавказа, вып.V. Тб., 1937

Rusiyasının Şimal-Qərbi Azərbaycandakı dini siyasətində ingiloylar və onların zorakı xristianlaşdırılması məsələlərini ətraflı və əhatəli şəkildə araşdırmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuş və onların həllinə cəhd göstərilmişdir:

– Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ərəfəsində onun şimal-qərb bölgəsinin sosial-iqtisadi və siyasi vəziyyətini işıqlandırmaq;

– Şimal-Qərbi Azərbaycanın Rusiya tərəfindən işğalının gedişi zamanı çarizmin bu bölgə ilə bağlı planlarını aydınlaşdırmaq;

– Çarizmin Şimal-Qərbi Azərbaycanda apardığı dini siyasətində ingiloyların yerini müəyyənləşdirmək;

– Çar Rusiyasının işğaldan sonra həyata keçirdiyi müstəmləkə siyasətinə qarşı Şimal-Qərbi Azərbaycan əhalisinin mübarizəsini araşdırmaq;

– Çarizmin ingiloylar arasında həyata keçirdiyi zorakı xristianlaşdırma siyasətinin mahiyyətini açıqlamaq;

– İngiloyların zorakı xristianlaşdırma siyasətinə qarşı mübarizəsini tədqiq etmək;

– Bu xristianlaşdırma siyasətinin nəticələrini təhlil edib dəyərləndirmək

**Dissertasiya işinin metodoloji əsası:** Dissertasiyanın metodoloji əsasını elmi obyektivlik, tarixilik, problemin müqayisəli və tənqidi təhlil üsulu ilə öyrəilməsi təşkil edir. Dissertasiyanın tədqiqi zamanı qarşıya qoyulan məqsədə nail olmaq üçün tarixi hadisələrə kompleks yanaşma, müqayisəli təhlil metodları əsas götürülmüşdür. Tarixi hadisə və proseslərin işıqlandırılmasında xronoloji ardıcıllığın saxlanılmasına xüsusi diqqət yetirilmiş, bütün mənbələr və faktiki materiallar tənqidi yanaşma metodu ilə araşdırılmışdır.

Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanla bağlı dini siyasətinin müəyyən edilməsi, bu zaman ingiloyların zorakı xristianlaşdırılması məsələləri ön plana çəkilərək əldə edilən arxiv sənədləri, mövcud elmi ədəbiyyat araşdırılaraq müqayisəli təhlil edilmiş və elmi-məntiqi nəticələr çıxarılmışdır. Bu araşdırmalar nəticəsində əldə edilən elmi nəticələr, onların analizi və sintezi çar Rusiyasının Şimal-Qərbi Azərbaycandakı dini siyasəti və ingiloyların zorakı xristianlaşdırılması məsələlərinə ətraflı işıq salmaq imkanı vermişdir.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiyanın başlıca elmi yeniliyi son dövrlərə qədər tarixi təhrif edilmiş bir etnosun – ingiloyların çar Rusiyasının Şimal-Qərbi Azərbaycanla bağlı dini siyasətindəki yeri probleminin ilk dəfə kompleks şəkildə, ayrıca tədqiqat obyekti olmasıdır. Əldə edilən arxiv sənədlərinin verdiyi məlumatlar, eləcə də tarixi ədəbiyyat və müxtəlif mənbə materialları bizə bu problemi hərtərəfli və dərindən tədqiq etməyə imkan vermişdir. Bu zəngin materialların təhlili bizə aşağıda sadalananları da dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir:

– İlk dəfə olaraq ingiloyların zorakı xristianlaşdırılması və onların bu siyasətə qarşı mübarizəsi problemi ayrıca tədqiqat obyekti kimi seçilmişdir;

– Tədqiqat işində ingiloyların xristianlaşdırılması ilə bağlı bəzi arxiv sənədləri ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmişdir;

– İngiloyların zorakı xristianlaşdırılması dörd mərhələyə bölünməklə bu bölgü tədqiqat zamanı əsaslandırılmışdır;

– Çarizmin Şimal-Qərbi Azərbaycanla bağlı işğalçılıq planlarında ingiloyların yeri göstərilməklə bu siyasətin mürtəce xarakteri üzə çıxarılmışdır;

– Tədqiqat nəticəsində mənbə məlumatları əsasında çar Rusiyasının Qafqazın müsəlman əhalisi arasında zorakı xristianlaşdırma siyasətinə hələ XVIII əsrin 40-cı illərindən başladığı müəyyən olunmuşdur;

– Tədqiqat zamanı müəyyən olunmuşdur ki, çarizmin Şimal-Qərbi Azərbaycanla bağlı müstəmləkəçilik siyasətinin konturları hələ işğaldan xeyli əvvəl cızılmışdı;

– Dissertasiyada əvvəlki tədqiqatlarda göstərilmiş zorla xaç suyuna çəkilmiş ingiloyların sayının bu işin xüsusilə geniş vüsət aldığı XIX əsrin 50-ci illərin sonu – 60 illərin əvvəllərində guya 20 min nəfərə çatması faktının yanlışlığı əsaslandırılmışdır;

– Çar məmurlarının verdiyi məlumatlar əsasında xaç suyuna çəkilmiş ingiloylarının sayının heç vaxt 4 mindən artıq olmadığı sübut olunmuşdur;

– Tədqiqat zamanı Qafqazın müsəlman əhalisi arasında xristianlığın yayılması məqsədilə təşkil olunmuş Mozdok Osetin Komissiyası, Osetin Ruhani Komissiyası, eləcə də Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin bu istiqamətdəki fəaliyyətləri ardıcıl olaraq izlənmişdir;

– İlk dəfə olaraq zorakı xristianlaşdırma siyasətinə qarşı ingiloyların ən böyük yaşayış məskəni və mərkəzi olan Əliabad kəndində başlayan və Əliabad ətraflarındakı kəndləri bürüyən üsyan əhatəli şəkildə tədqiq olunmuşdur;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Dissertasiyanın əməli əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, tədqiqat işində gətirilən faktiki material və ümumiləşdirmələrdən, bu materiallardan əldə olunmuş elmi nəticələrdən Azərbaycan tarixinə dair ümumiləşdirici əsrələrin, Azərbaycan tarixi üzrə dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

Dissertasiyanın nəticələrindən Respublikada milli-dini dəyərlərin təbliğində, bu mühüm işin həyata keçirilməsində, ölkədə dini parçalanma salanlara qarşı mübarizədə də istifadə oluna bilər.

Tədqiqat zamanı əldə edilən elmi nəticələrdən eyni zamanda Respublikanın ali məktəblərinin tarix fakültəsində mühazirə və xüsusi kursların oxunması məqsədilə də istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası:** Dissertasiya işi AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir.

Dissertasiya bu şöbədə iki dəfə müzakirə olunmuş və şöbənin 29 yanvar 2014-cü il tarixli iclasının qərarına əsasən müdafiəyə məsləhət görülmüşdür. Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda keçirilən, eləcə də beynəlxalq elmi-praktik konfranslarındakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 7 paraqrafı əhatə edən üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilmişdir. Girişdə, həmçinin, əldə olunan elmi yeniliklər verilmiş, tədqiqatın nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"XIX əsrin əvvəllərində çar Rusiyasının cənubi Qafqazla bağlı işğalçılıq siyasətində dini amil və ingiloylar"** adlanan birinci fəsili iki paraqrafdan ibarətdir. **"Şimal – Qərbi Azərbaycan Rusiya işğalı ərəfəsində"** adlanan birinci paraqrafda Şimal-Qərbi Azərbaycanın Rusiya işğalı ərəfəsində sosial-iqtisadi və siyasi vəziyyətindən bəhs edilərkən qeyd olunur ki, bu problemə həsr olunan ilk növbədə onun daxili həyatı, idarəçiliyi, əhalisi, məşğuliyyəti və qonşuları ilə əlaqələri kimi məsələləri tədqiq etmişdir.

Car-Balakən camaatlığı və İlisu sultanlığında azərbaycanlılarla (muğallar) yanaşı, avarlar, saxurlar, ingiloylar yaşayırdı. XIX əsr Rusiya qaynaqlarına görə, Car-Balakən camaatlığında avarlar və qismən saxurlar, İlisu sultanlığında isə sultan və saxurlar idarəçilik sistemində həlledici rola sahib idilər. Əsasən Alazan vadisində yerləşmiş, əkinçilik və maldarlıqla məşğul olan ingiloylar və muğallar isə bütün hüquqlardan və səlahiyyətlərdən məhrum edilmiş, asılı vəziyyətə salınmışdılar. Hərçənd son dövrlər aparılmış tədqiqatlardan bəlli olduğu kimi, rusdilli qaynaqlarda bölgə əhalisinin sosial tərkibi göstərilərkən daha çox etnik cəhətlər qabardılmışdır. Fikrimizcə, əhalinin sosial tərkibinə belə yanaşma düzgün deyil. Elə həmin XIX əsrə aid rusdilli qaynaqlarda muğal və qismən də ingiloy kəndlərində yaşayan çoxlu sayda bəylərin, mülkədarların adlarına rast gəlinir.

İ.P. Petruşevskinin "Xalq seymi" adlandırdığı xalq yığıncağı Muxax yaxınlığındakı Ağdam adlanan yerdə çağırılırdı. Baş kovxa, qazı və azad icmaların toxum ağsaqqallarından ibarət icra orqanı bu yığıncağın işinə rəhbərlik

edirdi. Xalq yığıncağı müharibə, sülh, qonşularla münasibətlər kimi məsələlərə baxırdı[28].

Şimal-Qərbi Azərbaycan burada mövcud olmuş aqrar münasibətlərin spesifikliyi ilə də seçilirdi. Bölgənin qərb hissəsində – Car-Balakən camaatlığında mövcud olmuş keşkəl institutuna Azərbaycanın digər bölgələrində təsadüf olunmur. Burada mövcud olmuş aqrar münasibətləri araşdırmış tədqiqatçılara görə keşkəlin bir neçə anlamı olmuşdur. O, keşkəli alanlar üçün torpaqdan alınan vergi, onu ödəyənlər üçün isə "əkilib becərilən torpaq" mənasını daşımışlar[29]. Bundan əlavə keşkəlin tarixi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Məsələn, H.B.K. Şirvanski 1908-ci ildə "Cənubi Qafqaz" qəzetində çap olunmuş "Köç - Gel" məqaləsində keşkəli "köç-gəl" sözünün dəyişilmiş variantı hesab edir. Müəllifə görə, vaxtilə Zaqatala dairəsinin münbit hissəsində yaşayan yerli əhali dağlıq, sərt Dağıstandan köçüb gəlmişləri qəbul etmiş və onlara "köçün- gəlin" demişlər. Müsəlman dini adətinə uyğun olaraq yeni gəlmiş qonşularına xüsusi xeyriyyə vergisi olan "zəkat" ödəmişlər. Əvvəllər könüllü şəkildə ödənilən bu vergi vaxt keçdikcə mahiyyətini dəyişərək "köç-gel" vergisi şəklində məcburi forma almışdır[30]. Müəyyən miqdarda olan bu verginin ödənilməsi onu ödəyən əhali üçün elə də çətinlik törətməmişdir. Car-Balakən camaatlığında 21 keşkəl ödəyən kənd var idi[31].

**"Çarizmin Şimal – Qərbi Azərbaycanla bağlı işğalçılıq planları və ingiloylar"** adlanan ikinci paraqrafda göstərilir ki, XVIII əsrin sonlarından etibarən Rusiya imperiyası Cənubi Qafqazla bağlı planlarını reallaşdırmaq istiqamətində qəti addımlar atmağa başladı. Əvvəlcə dəvət olunduğu Şərqi Gürcüstanda mövcudluğunu möhkəmləndirdikdən sonra, XIX əsrin əvvəllərindən Şərqə doğru – Azərbaycan istiqamətində geniş işğalları həyata keçirmək üçün ciddi hazırlıqlara başlandı. Azərbaycanın XIX-XX əsr tarixinin tədqiqatçılarından olan tarix elmləri doktoru Kərim Şükürov bu barədə yazır: "Şərqi Gürcüstanda möhkəmlənən Rusiya faktiki olaraq Azərbaycan xanlıqları ilə müharibəyə başlayır. Rus qoşunlarının hücum istiqaməti, Car-Balakən və Gəncənin alınması zamanı tətbiq edilən hərbi üsullar, həmin torpaqların tutulmasından sonra yaradılan idarə sistemi deyilənləri təsdiq edir"[32].

---

[28] Петрушевский И.П. Джаро-белоканские вольные общества в первой половине XIX в., М., (ДНЦ РАН). 1993, с. 37-53

[29] Писаревский Г.Г. Уничтожение в Закатальском округе зависимых отношений к бекам и к кешкело владелцам. Труды Института Истории им. А.А. Бакиханова АН Аз. ССР. Т.1. Б., 1947. с.105-106.

[30] ARDT Arxivi F.15, s.1, iş 3. 92-92 arxa

[31] Şükürov K.K. Azərbaycanın bölüşdürülməsi. "Kitablar aləmində" jurnalı, B., 1990, №3, s.21

[32] Yenə orada.

Çar generalları Azərbaycan torpaqlarının işğalı ilə bağlı bu hərbi strategiyanı hazırlayarkən müəyyən amilləri- tarixi, siyasi, iqtisadi, dini və ən əsası hərbi və psixoloji amilləri nəzərə almağa çalışmışdılar: ***Tarixi amillər:*** Kartli və Kaxeti timsalında Şərqi Gürcüstan imperiya tərkibinə daxil edildikdən sonra, çar generalları əvvəllər, guya müəyyən müddət gürcülərin nəzarəti altında olmuş və ya gürcülərin iddiasında olduğu Azərbaycan torpaqlarının da Rusiyaya ilhaq edilməli olduğu qənaətində idilər. ***Siyasi amillər:*** Hələ XVI-XVII əsrin əvvəllərindən Şimal-Qərbi Azərbaycan torpaqlarında yaranmış Car-Balakən azad icmaları və İlisu sultanlığı XIX əsrin əvvəllərində də Cənubi Qafqazda baş verən siyasi proseslərə fəal müdaxilə edən güc mərkəzi kimi öz nüfuzunu qoruyub saxlamışdı. Qafqzada tarixən böyük maraqları olan Osmanlı imperiyası və Qacarlar İranı ilə yaxın münasibətlərində tarazlaşdırılmış siyasətə üstünlük verən Car-Balakən azad icmaları və İlisu sultanlığı ilə Şəki, Gəncə, Qarabağ kimi nüfuzlu Azərbaycan xanlıqları müttəfiq olmağa çalışırdılar. ***Hərbi amillər:*** Yarandığı vaxtdan Car-Balakən azad icmaları və İlisu sultanlığı əhalisi öz döyüşkənliyi və məğrurluğu ilə digərlərindən çox seçilirdi. Dağlılara məxsus cəngavərlik dövrünü yaşayan avarlar, saxurlar, eləcə də tarixən əkinçilik və maldarlıq sahəsində yüksək mədəniyyətə sahib ingiloylar, muğallar arasındakı pozulmaz ittifaq Car-Balakən azad icmaları və İlisu sultanlığına regionda real güc nümayiş etdirməyə imkan verirdi. Bölgə əhalisinin etnik tərkibi baxımdan hərbi və iqtisadi sahə üzrə “ixtisaslaşması” onların hər iki istiqamətdə yüksək nailiyyətlər əldə etməsinə şərait yaratmışdı. ***Psixoloji amillər:*** Hədəf olaraq əsrlər boyu Gürcüstanı vahimə içərisində saxlayan, zaman-zaman onu özündən asılı vəziyyətə salan Car – Balakən azad icmaları seçilmişdi. Məqsəd şimal-qərbdən ölkənin içərilərinə irəliləmək, Car – Balakəni tutmaqla dağlıların “məglubedilməz” imicinə zərbə endirmək və Cənubi Qafqazın xristian əhalisinin etimadını qazanmaq idi. ***Dini amillər:*** Bölgənin tarixi və əhalisi haqqında hələ kifayət qədər məlumatlara malik olmayan Rusiya generallarının və süngüsünün gücü ilə Qafqazda böyük Gürcüstan yaratmaq xülyasına düşmüş gürcü şovinistləri şimal – qərbdən Azərbaycan torpaqlarının “əzəli Gürcüstan torpaqları”, bölgənin qədim sakinləri olan ingiloyları isə müsəlman olmalarına baxmayaraq, “xristian həyat tərzi keçirən” və gizlində guya bu dinə sitayiş edən “gürcülər” hesab edirdilər.

Müsəlman əhali arasında xristianlığı yaymaq məqsədilə Qafqaza pravoslav missionerləri hələ 1745-ci ildə göndərilmiş, lakin bu ilk cəhd uğursuz olmuş, onlar iyirmi ildən artıq bir müddətdə əsasən osetinlərdən olmaqla 2142 nəfəri xristianlığı qəbul etməyə məcbur edə bilmişdilər. Qafqazın dağlı xalqları arasında xristianlığı yaymaq məqsədilə 1771-ci ildə

təşkil olunmuş Mozdok-Osetin komissiyası da yarandığı vaxtdan 1792-ci ilə kimi keçmiş iyirmi il müddətində cəmi 6675 nəfəri pravoslavlaşdıra bilmişdi[33]

**"XIX əsrin I yarisinda ingiloylarin Rusiyanin zorakı xristianlaşdirma siyasətinə qarşi mübarizəsi"** ikinci fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqraf **"Rusiya işğalı dövründə zorakı xristianlaşmaya qarşı mübarizə və ingiloylar"** adlanır. Həmin paraqrafda qeyd olunur ki, 1803-cü ildən etibarən Rusiya imperiyası Car-Balakən camaatlığı və İlisu sultanlığına qarşı hərbi işğal planının həyata keçirilməsinə başlayır. Həmin ilin martında general-mayor V.S.Qulyakovun başçılığı ilə Car-Balakən camaatlığına hərbi ekspedisiya hazırlanır. Balakən yaxınlığında baş vermiş ilk döyüşdə car-balakənlilər 500 nəfər itirir, yerli əhalidən 136 nəfər, o cümlədən burada sığınacaq tapmış iki qaçqın gürcü knyazı əsir düşür[34].

Qeyd etmək lazımdır ki, çar hökuməti Şimal-Qərbi Azərbaycanda xristianlığı yaymaq cəhdlərinə 1803-cü ildən – Car-Balakən camaatlığının işğalı ilə başladı.

Çar Rusiyasının ingiloylarla bağlı siyasətindən bəhs edən tədqiqatçi alim Ş.H.Əliyev bu barədə yazır: "1803-cü ildən etibarən Rusiya, ingiloyları himayə etmək adı altında əsasən iki istiqamətdə iş aparırdı; onlardan birincisi ingiloyların avarlardan və İlisu sultanlığından asılılığını ləğv etmək, siyasi və iqtisadi sahədə ingiloyların avar və saxurlarla bərabər hüquqlara malik olmasına nail olmaq, vilayətdə yaradılmış milis və digər silahlı dəstələrin təşkilində ingiloyların iştirakını təmin etmək və s.; ikincisi isə ingiloyları kütləvi şəkildə xristianlaşdırmaqla, onlardan lazım gəldikdə müsəlman əhaliyə qarşı istifadə etmək"[35].XIX əsrin 20-ci illərindən etibarən ingiloyların xristianlaşdırılması işinə bilavasitə Gürcüstan ekzarxının rəhbərliyi ilə başlanılır. Qeyd etmək lazımdır ki, Gürcüstan ekzarxlığının mövcud olduğu dövrdə (1811-ci ildən – 1917-ci ilədək) ilk mitropolit Varlaam Eristavi (1811—1817) istisna olmaqla, digər bütün mitropolitlər milliyətcə rus olmuşdur.

**30-cu illər üsyanları və ingiloylar** adlanan ikinci paraqrafda 1830-cu ilin əvvəllərindən bu bölgə ilə bağlı işğalçılıq planları, baş tutmayan köçürmə siyasəti sənədlər əsasında izlənilmiş və öyrənilmişdir. Çarizm XIX əsrin ilk otuzilliyində Qacarlar İranı və Osmanlı imperiyası ilə apardığı müharibələr nəticəsində Cənubi Qafqazdakı mövcudluğunun hüquqi cəhətdən təsbitinə nail oldu. Car-balakənlilərlə bağlı 1803-cü ildən bəri yaranmış siyasi vəziyyətə "göz yummağa" məcbur olmuş Rusiya imperiyası artıq onların "özbaşı-

---

[33] АКАК. Т .VIII, Тб., 1881, с. 2481

[34] Петрушевский И.П. Джаро-белоканские вольные общества в первой половине XIX в. М.,(ДНЦ РАН), 1993, с.91

[35] Əliyev Ş.H. Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasətində ingiloyları xristianlaşdırmaq cəhdləri (XIX əsr), BDU-nın Xəbərləri. B., 2000, №2, s.91

nalıqları"na son qoymaq qərarına gəlir. 1830-cu ilin əvvəllərindən ciddi şəkildə hazırlıqlara başlayan Qafqazdakı rus ordularının komandanlığı hərbi müdaxilə üçün bəhanə axtarmağa başlayır. Baş komandan İ.F. Paskeviçin 1830-cu il fevralın 25-də Car-Balakən azad icmalarına ünvanladığı bəyannamə layihəsi də bu məqsədlə hazırlanmışdı. Danışıqlar üçün icmaların nümayəndələri Muğanlı kəndində mövqe tutmuş İ.F.Paskeviçin yanına gəlsələr də baş komandan tərəfindən qəbul olunmadılar. Əvəzində onlara baş komandanın Tatar (Azərbaycan) dilində hazırladığı bəyannamə layihəsi təqdim olundu və geri qaytarıldılar[36].

Baş komandan İ.F.Paskeviç bu bölgə ilə bağlı planlarından əl çəkmək niyyətində deyildi. O, bölgənin tarixən formalaşmış möhkəm etnik-dini birliyini parçalamaq, burada müsəlmanlara qarşı dura biləcək xristian icması yaratmaq məqsədilə növbəti müstəmləkəçi tədbiri – köçürmə siyasətini də reallaşdırmağa çalışırdı. İ.F.Paskeviç bu sahədə kifayət qədər "böyük" təcrübəyə malik idi. Bundan bir qədər əvvəl məhz İ.F.Paskeviçin təşəbbüsü ilə Rusiya hökumətinin İranla sərhəd boyu ərazilərə 80 min kazakın köçürülməsi layihəsi irəli sürülmüşdü[37].

**"XIX əsrin 50-60-ci illərində Şimal-Qərbi Azərbaycanda Rusiya müstəmləkəçiliyinə qarşi mübarizə və ingiloylar"** adlanan üçüncü fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf "**İngiloyların zorakı xristianlaşdırılmasında yeni mərhələnin başlanması"** adlanır. XIX əsrin 20-30-cu illərində ingiloyların xristianlaşdırılması siyasətinin uğursuzluğu, bu dövrdən etibarən Şimali Qafqazda müqavimət hərəkatının yüksələn xətlə inkişafı, eyni zamanda müridizmin Azərbaycana, xüsusilə də Car-Balakən icmalarına güclü təsiri Qafqaz komandanlığını bu bölgəyə münasibətdə bir qədər ehtiyatlı siyasət yürütməyə vadar edirdi[38]. 1844-cü ildə İlisu sultanı Daniyalın başladığı üsyanın yatırılması, sultanın tərəfdarları ilə birlikdə dağlara çəkilməsi və Şamil hərəkatına qoşulması nəticəsində İlisu sultanlığı ləğv edildi. Beləliklə, Şimali Azərbaycanda sonuncu yarımmüstəqil feodal hakimliyini xəritədən silməklə Rusiya imperiyası əslində bilavasitə ingiloyların xristianlaşdırılması işində sonuncu "maneəni" də aradan qaldırmış oldu. İlisu sultanlığının ləğv olunması burada siyasi və torpaq islahatlarının aparılmasına səbəb oldu.

"**Əliabad üsyanı"** adlanan ikinci paraqrafda 1863-cü il Zaqatala üsyanı ardınca Əliabad da baş vermiş üsyanın səbəbləri, gedişatı və nəticələri geniş təhlil olunmuşdur. Çar məmuru Semyon Esadze ingiloyların zorakı xristianlaşdırılması barədə yazırdı: "Qarasu, İlisu və Əliabad naibliklərinin əhalisinin

36 ЦГИАГ, ф. 488, оп.1, дело 3873, с. 6
37 Arzumanli V.Nazim M. Tarixin qara səhifələri Deportasiya, Soyqırım, Qaçqınlıq. B,1998,s. 25
38 ARDT Arxivi, f. 125, s.1, iş 142, 61-61 arxa

xristianlığa etiqad etmələri barədəki əfsanələrə əsaslanan dairə administrasiyası qarşısına ingiloyların əski inamını bərpa etmək məqsədini qoyur.... polis xristianlığı qəbul edən bütün müsəlmanlara sərfəli şərtlərlə torpaqlar vəd etmişdi. Dinini dəyişən əhali vəd olunanları tələb etdikdə onların tələbi yerinə yetirilmir. Rəhbərlik və ruhanilər tərəfindən aldadılan əhali yenidən geri, müsəlmanlığa döndərilmələrini tələb edirlər. İncilin böyük və təmiz həqiqətləri polis və ruhanilər tərəfindən iyrənc bazara və yalana çevrilirdi[39]. 1862-ci ildə Əliabad kəndindən 40 araba ailə məcburi xristianlaşdırmaya etiraz əlaməti olaraq Türkiyəyə köçmüş və hazırda onların Türkiyə Respublikasının Adana vilayətinin Ceyhan ilçəsindəki Dağıstan kəndində yaşayan varisləri – ingiloy mənşəli türklərin Əliabad kəndi ilə əlaqələri mövcuddur[40].

Bununla Zaqatala dairəsində üsyanın tamamilə yatırıldığını və sakitliyin bərpa olunduğunu güman edən Qafqaz komandanlığı yanılırdı. Bu dəfə ingiloylar demək olar ki, kütləvi şəkildə ayağa qalxaraq zorakı xristianlaşdırmaya qarşı mübarizəyə başladılar. Zaqatala dairəsinin əksər iri ingiloy kəndlərində çarizmin bu siyasətinə etiraz edən silahlı dəstələr meydana gəlməyə başlayır. İlk dəfə bu hadisələrə obyektiv mövqedən yanaşan Semyon Esadze olmuşdur.

Üçüncü paraqraf **“XIX əsrin sonlarında Şimal-Qərbi Azərbaycanda çar Rusiyasının dini siyasəti və ingiloylar”** adlanır. Bu paraqrafda göstərilir ki, Şimal-Qərbi Azərbaycanda çarizmin apardığı zorakı xristianlaşdırmanın növbəti mərhələsi XIX əsrin 70-ci illərin sonlarından, bütövlükdə isə Qafqazı bürümüş 1877-ci il üsyanının yatırılmasından sonra başlayır. Lakin əldə olunan arxiv sənədlərinin verdiyi məlumatlar sübut edir ki, 1863-cü il üsyanından sonra bu sahədəki verilmiş müvəqqəti fasilədən sonra çarizm 60-cı illərin ikinci yarısından etibarən yenidən bu istiqamətdəki fəaliyyətini canlandırmışdı. İndi onlar açıq təbliğatdan çəkinərək əsas fəaliyyətlərini 1863-1865-ci illərdəki sərbəst müsəlmanlığa qayıdışdan sonra zorakı xristianlaşdırma sahəsində qalmış cüzi “uğurları”nın əldə saxlanılmasına yönəltmişlər. İtirilmiş nüfuzlarının bərpasına çalışaraq hələlik əhaliyə açıq təzyiq göstərilmir, lakin gizlində xristianlar himayə edilir, onların bu istiqamətdəki hər cür fəaliyyətləri təqdir olunmaqla mükafatlandırılır, istənilən itkilərinin isə əvəzi ödənilirdi.

Üsyan nəticəsində dairənin Balakən, Tasmalı, Əliabad kəndlərində kilsə tikilməsi üçün işlərin görülməsi zamanı dəymiş zərərin müəyyən edilməsi məqsədilə Tiflisdən mühəndis, ştabs-kapitan Qartkeviç dairəyə ezam edilir[41]

[39] Эсадзе С. Историческая записка об управлении Кавказом. Ч.1, Тб., 1907, с. 210-212
[40] Əliyev Ş.H. Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasətində ingiloyları xristianlaşdırmaq cəhdləri (XIX əsr), BDU. Xəbərləri. Humanitar elmlər seriyası, B., 2000, №2, s.99; ЦГИАГ ф. 2, оп.1, дело 3058
[41] ЦГИАГ ф. 493, оп.1, дело 730, л. 90

Xristian missionerləri əhalinin islama qayıdışının qarşısını almağa müvəffəq olduqları Qax, Əlibəyli, Kötüklü, Meşəbaş kəndlərində, bölgənin Böyük Alatemir, Kiçik Alatemir, Qarameşə kimi iri binələrində xristianlığı gücləndirməyə çalışırdılar.

70-ci illərin əvvəllərində missionerlər əsasən bölgənin xristianlığın yayılması işinin daha zəif getdiyi və ümumiyyətlə bu prosesdən kənarda qalmış kəndlərdə fəallıq göstərməyə başlayırlar. Onlar Tasmalı kəndində 1871-ci ildə Ruşan Loma oğlunu (xristian adı Maksim Lomaşvili), növbəti 1872-ci ildə isə Mehdi Bahadırı (xristian adı İvan Adrionaşvili) ailəsi ilə birgə xristianlığı qəbul etdirməyə müvəffəq olurlar. Qafqaz canişininin hərbi xalq idarəçiliyi üzrə dəftərxanasından imperiyanın Daxili İşlər Nazirliyinə göndərilmiş hesabat-məruzədə qeyd olunurdu ki, "...Tasmalı ingiloy kəndi olmasına baxmayaraq yuxarıda qeyd olunan müddətdə (bölgədə zorakı xristianlaşdırma siyasətinin aparıldığı müddətdə) onun əhalisindən bir nəfər də olsun xristianlığı qəbul etməmişdir. Bu kənddə ilk xristianın meydana gəlməsi (xristianlığın qəbulu hadisəsi) 1871-ci ilə aiddir..."[42]. Bölgədən verilmiş 1858-ci ilə dair məlumatda isə Zəyəm, Ləläpaşa, Marsan və Yengianla yanaşı Tasmalı kənd əhalisinin də əsasən xristianlaşdırıldığı qeyd olunurdu[43].

1875-ci ildə ingiloy kilsələrinin keşişi Utiyev o zamankı dairə rəisi polkovnik Şelkovnikova məktubla müraciət edərək xristian olmaq məqsədi ilə guya ona müraciət etmiş bir qrup Tasmalı sakininin xaç suyuna çəkilməsinə razılıq verməsini xahiş edir. Lakin bu məlumatın doğruluğuna, tasmalıların "könüllü" şəkildə müraciət etməsinə şübhə edən dairə rəisi keşişə "... əgər o yuxarıdan əmr alarsa iki gün ərzində nəinki tasmalıları, hətta dairədəki bütün ingiloyları xaç suyuna çəkər..." cavabını verməklə, dolayısıyla onu başından etmişdi. Bunun ardınca bəhs olunan 1872-ci ildə xristianlığı qəbul etməyə məcbur edilmiş İvan Andrionaşvili (Mehdi Bahadır) yenidən islama qayıdır. 1875-ci ildə İvan Andrionaşvilinin müsəlmanlığa qayıtması baş vermişdir ki, əgər doğrudan da Tasmalıda xristianlığı qəbul etmək istəyən əhali qrupu olsaydı, xristianlıqdan ayrılma baş verməzdi"[44].

Bölgə əhalisi üçün müqəddəs sayılan Kürmük məbədinin onların əllərindən alınması üçün ("özününküləşdirmək məqsədilə") məqsədli addımlar atılır. Qaxda müvəqqəti yaşayan ermənilərin bu yerə iddia etmələri bəhanə edilərək Gürcüstan ekzarxının 1877-ci il 14 yanvar tarixli qərarına əsasən onun yerində Əlibəyli sakini Nadiraşvili tərəfindən kiçik kilsə inşa olunur. Zaqatala dairəsindəki xristian elementini artırmaq istəyində olan Serafimoviç

---

[42] ARDT Arxivi f. 125, s.1, iş 142, v. 66-67
[43] ARDT Arxivi f. 579, s.1, iş 1, v. 10-11
[44] ARDT Arxivi f. 125, s.1, iş 142, v. 67-68

bu istiqamətdə ciddi şəkildə fəaliyyətə başlamışdı. Tasmalıların xristianlaşdırılmasına növbəti cəhd də məhz onun zamanında, 1880-ci ildə edilir. 1881-ci ildə məcburi xristianlaşdırma işinin fəal tərəfdarlarından olan Zaqatala dairəsinin rəisi Serafimoviçin Balakən yaxınlığında öldürülməsi Qafqaz komandanlığını yenidən bir müddət bu siyasətini ikinci plana keçirməyə məcbur edir. Nəticədə 1882-ci ildə xristianlaşdırılmış tasmalılardan 11 tüstü yenidən islama qayıdır[45].

Tasmalı keşişi Mixail Kuloşvili əhalinin gözündə hörmət və etibar qazanmaq məqsədilə özünün bütün qabiliyyət və bacarığından istifadə edərək əhali ilə yaxınlaşmağa çalışırdı. Onun Tasmalı kəndinə keşiş təyin olunmasıyla uzun müddət xristianlaşdırma işində heç bir nəticə əldə etmək mümkün olmayan bu kənddə zorakı provaslavlaşdırma işinə hakimiyyət orqanlarının hərtərəfli yardımı və himayəsi sayəsində xüsusi cidd-cəhdlə girişilmişdi. Zorakı xristianlaşdırma işində Tasmalı kəndinə xüsusi önəm verilməsinin başlıca səbəbi onun Əliabaddan sonra ikinci böyük ingiloy kəndi olmaqla, həm də yerləşdiyi əlverişli coğrafi mövqeyi ilə də bağlı idi. Xristian missionerlərinin fikrincə Əliabad məntəqəsinin mərkəzində, məntəqədəki digər ingiloy kəndlərinin əhatəsində yerləşən Tasmalı kəndində bu işi uğurla aparmaqla provaslavlığın ətraf kəndlərin əhalisi arasında yayılmasında da uğur əldə etmək olardı.

Üçüncü fəsildə bütün yuxarıda göstərilən məsələlərlə bağlı çoxsaylı faktik material verilir.

Dissertasiyanın **"Nəticə"** hissəsində ümumiləşdirmələr aparılmış, tədqiqat prosesində əldə olunan nəticələr verilmişdir.

## Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. İngiloyların çar Rusiyasının pravoslavlaşdırma siyasətinə qarşı mübarizəsi // AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri", 20-ci cild, Bakı, 2007, s.131-137
2. Şimal-Qərbi Azərbaycanda Kürmük bayramının keçirilməsi tarixinə dair. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri", 23-ci cild, Bakı, 2008, s. 169-176
3. Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda zorakı xristianlaşdırma siyasəti (Tasmalı kəndinə dair arxiv materialları əsasında). AMEA A.A.

[45] ARDT Arxivi f. 579, s.1, iş 3, v.16-17

Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri", 32-ci cild, Bakı, 2010, s. 92-99

4. Çar Rusiyasının Cənubi Qafqaz siyasətində inqiloylar. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri", xüsusi buraxılış ("Azərbaycan-Dağıstan: qardaşlıq münasibətləri tarixi, müasirlik, perspektivlər" mövzusunda Seyid Qurbanovun xatirəsinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları), Bakı, 33-cü cild, Bakı, 2010, s. 293-304

5. XIX əsrin əvvəllərində çar Rusiyasının Cənubi Qafqazla bağli işğalçılıq siyasətində dini amillər və İngiloylar. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri", 35-ci cild, Bakı, 2010, s. 93-99

6. Антиколониальные выступления населения в Закатальском округе северного Азербайджана в 60-годах XIX века". AMEA "Azərbaycan və azərbaycanlılar" jurnalı, №3-4, Bakı, 2010, с.159-162

7. Çarizmin Şimali-Qərbi Azərbaycanla bağlı işğalçılıq planları və ingiloylar. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri", ("Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisidir" mövzusunda beynəlxalq elmi konfransın materialları) xüsusi buraxılış, 38-ci cild, Bakı, 2011, s.79-83

8. XIX yüzyılında çar Rusiyasının Azerbaycan'ın Kuzey-Batı Bölgesinde Hristianlıq yaymak Siyaseti ve İngiloylar. Güney Kafkasya Halkları Dil-Tarih-Kültür İlişkileri Uluslar Arası Bilgi Şöleni Bildiriler. Türkiyə Cümhuriyyəti Ordu Universiteti. Ordu, 2011, s. 53-58

9. XIX əsrin birinci yarısında ingiloylar arasında xristianlığın yayılması. Türk Dünyası: Dünəni və Bu Günü (Beynəlxalq elmi konfrans) tezislər – 23-24 may 2011. Bakı, 2011, s. 213-214

10. Насильственная христианизация царской Россией северо-западного Азербайджана (на основе архивных материалов села Тасмалы). Kazırgı Zaman: pikirler əlemi filosofiya almanaxı (Философский альманах современность: Мир мнений), №2, Алматы, 2012, с.134-143

11. «Христианизация в северо-западном Азербайджане в период царской России (70-е годы XIX ст.)». Національний Педагогічний Університет імені М.П.Драгоманова Українська Академія Наук. Гілея наукови вісник. Збірник наукових праць. Випуск 72 (5), Киів 2013, с. 218-223

12. "Şimal-Qərbi Azərbaycanın çar Rusiyası tərəfindən işğalı XIX əsr". Gəncə Dövlət Universiteti, Elmi Xəbərləri. Gəncə, 2013. № 4. s. 217-223

13. "Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyətinin tarixi fəaliyyəti". Bakı Avrasiya Universiteti Elmi-nəzəri jurnal Sivilizasiya Bakı, 2013 № 5. s. 145-150

**Irada ALIYEVA**

## THE RELIGIOUS POLICY OF TSARIST RUSSIA IN THE NORTH-WEST AZERBAIJAN AND INGILOYS (XIX century)

### SUMMARY

In the dissertation for the first time in the country historiography the problem of religious policy of Tsarist Russia in XIX century in the North-West Azerbaijan in relation to Ingiloys is investigated.

The dissertation consists of the introduction, three chapters consisting of seven paragraphs, the conclusion and the bibliography. In the introduction the topicality and chronological frameworks of the theme are grounded, degree of problem studying is elucidated, and the review of sources and methodological and theoretical base of research is given. In the introduction also the goals and objectives, relevance, scientific novelty, theoretical and practical significance of the dissertation are defined.

Chapter I entitled as “The religious factor in the aggressive policy of Tsarist Russia in the South Caucasus at the beginning of the XIX century and Ingiloys” consists of two paragraphs, which describe the political and socio-economic Situation of the North-West Azerbaijan on the eve of military intervention and a planned conquest of the region by Russia beginning from the end of the XVIII century.

Chapter II entitled as “The struggle against Russia's policy of forced Christianization of Ingiloys in the first half of the XIX century” consists of two paragraphs. The Russian Empire’s launch to the implementation of its aggressive plans and attempts to disseminate Christianity in the North-West Azerbaijan in the XIX century, as well as the conquest and unsuccessful resettlement policy in the region that began to be pursued since 1830 is described there.

Chapter III on the theme “Fight against Russia's colonial policy in the North-West Azerbaijan in the second half of the XIX century and Ingiloys” consists of three paragraphs dealing with the policy of Christianization of Ingiloys. There on the basis of archival documents the reasons, course and results of the uprising of Ingiloys in 1863 in Aliabad are described in details and analyzed.

The main conclusions of the author are reflected in the “Conclusion” of the dissertation.

**Ирада АЛИЕВА**

# РЕЛИГИОЗНАЯ ПОЛИТИКА ЦАРСКОЙ РОССИИ В СЕВЕРО-ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ И ИНГИЛОЙЦЫ (XIX век)

## РЕЗЮМЕ

В диссертации впервые в Отечественной историографии исследуется проблема религиозной политики царской России в XIX веке в Северо-Западном Азербайджане по отношению к ингилойцам.

Диссертация состоит из введения, трех глав, семи параграфов, заключения и списка использованной литературы. Во введение обосновываются актуальность и хронологические рамки темы, раскрывается степень изученности проблемы, дается обзор источников и методико-теоретической базы исследования. Во введение также определены цели и задачи, актуальность, научная новизна, теоретическое и практическое значение диссертации.

Первая глава диссертации под названием **« Религиозный фактор в захватнической политике царской России на Южном Кавказе в начале XIX века и ингилойцы»** состоит из двух параграфов. В них описываются политическое и социально-экономическое положение Северо-Западного Азербайджана накануне военного вмешательства и планомерного завоевания региона Россией начиная с конца XVIII века.

Во второй главе диссертации **«Борьба против политики России по насильственной христианизации ингилойцев в первой половине XIX века»,** состоящей из двух параграфов, осуществляются захватнические планы Российской империи по распространению христианства в Северо-Западном Азербайджане в начале XIX века, а так же проводимая ею с 1830 года безуспешная переселенческая политика в регионе.

Третья глава диссертации по теме **«Борьба против колониальной политики России в Северо-Западном Азербайджане во второй половине XIX века и ингилойцы»** состоит из трех параграфов. В которых анализируется борьба против политики христианизации и огрузинизации ингилойцев. В них на основе архивных документов подробно раскрываются причины, ход и итоги восстания ингилойцев в Алиабаде в 1863 году.

Основные выводы автора нашли свое отражение в «Заключение» диссертации.

Formatı: 60x84 $^{1}/_{16}$. F.ç.v. 1,75.
Tiraj 100 nüsxə.

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А. БАКИХАНОВА**

---

*На правах рукописи*

**ИРАДА ГАДЖИАЛИ гызы АЛИЕВА**

# РЕЛИГИОЗНАЯ ПОЛИТИКА ЦАРСКОЙ РОССИИ В СЕВЕРО-ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ И ИНГИЛОЙЦЫ (XIX ВЕК)

*Специальность: 5503.02 – Отечественная история*

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2014**